**«Sənə də qalmaz…»**

Bu məşhur mahnının müəllifi Tofiq Quliyev 1917-ci il 7 noyabrda Bakıda anadan olmuşdu. O, Azərbaycan mədəniyyəti tarixində bəstəkar, pianoçu, dirijor, bir çox simfonik əsərlərin, kantataların, fortepiano əsərlərinin müəllifi, Azərbaycan caz və estrada musiqisinin banilərindən biri kimi yaşayır.

Tofiq Quliyev 12 yaşında Azərbaycan Dövlət Konservatoriyası yanında peşə məktəbinə, 1934-cü ildə Konservatoriyaya daxil olub və 1936-cı ilədək burada peşəkar musiqi təhsili alıb. Sonradan təhsilini davam etdirmək üçün dahi Üzeyir Hacıbəylinin təşəbbüsü ilə Moskva Dövlət Konservatoriyasına göndərilib. Tezliklə orada A.Tfasmanın rəhbərlik etdiyi orkestrdə pianoçu işləməyə başlayıb.

T.Quliyev 1939-cu ildə Bakıya qayıdıb və 1941-ci ildə «Qırmızı ordu» ansamblını yaradıb. 402-ci diviziyanın tərkibində çalışan ansambl üçün müxtəlif vətənpərvərlik mahnıları yazıb. Müharibədən sonra teatrlarla əməkdaşlıq edib, kino sahəsində işləməyə başlayıb. 1951-ci ildə Moskva Dövlət Konservatoriyasının aspiranturasına daxil olub və həmin il «Azərbaycan xalq rəqsləri» toplusunu hazırlayanlardan biri olub. 1954-cü ildə Azərbaycan Dövlət Konservatoriyasında dərs deməyə başlayıb. XX əsrin 70-ci illərinin sonlarında bir çox uşaq və gənc musiqi müsabiqələrini, o cümlədən «Bakı payızı»nı yaradıb. 1969-cu ildən 1979-cu ilə qədər Azərbaycan Bəstəkarlar İttifaqına rəhbərlik edib. 1990-cı ildən ömrünün sonuna - 2000-ci ilə kimi Azərbaycan Bəstəkarlar İttifaqının idarə heyətinin sədri vəzifəsində çalışıb.

Tofiq Quliyev Azərbaycan estrada musiqisinin yaradıcılarındandır. 1941-45-ci illərdə - müharibə vaxtı bəstələdiyi «Öldü var, döndü yoxdur», sonrakı dövrlərdə yaratdığı «Neftçilər mahnısı», «Qızıl sünbül», «Azərbaycan», «Sənə də qalmaz», «İlk bahar», «Sevgilim», «Sən mənimsən, mən sənin», «Axşam görüşlərinə», «Bəxtəvər oldum» kimi mahnılar dillər əzbəri olmuşdur. Bəstəkar «Sevimli mahnı», «Görüş», «Qızmar günəş altında», «Ögey ana», «Telefonçu qız» , «Belə ada da vardır», «Nəsimi» və s. filmlərə musiqi bəstələmişdir. Tofiq Quliyev «Aktrisa» (1943), «Qızılaxtaranlar» (1963), «Sənin bircə sözün» (1967), «Tahirin süqutu»(1972), «Sabahın xeyir, Ella» (1973) operettalarının müəllifidir.